## SƏNSƏN GÖRƏN GÖZÜ AZƏRBAYCANIN!

Yenə də toy-büsat yenə də şənlik,
Hər dəfə gəlişi zəfərdir-zəfər.
Sevgimiz göydəki ulduzlar qədər,
Odur, görən gözü Azərbaycanın!

Səsi gəlir dünyanın hər yerindən,
Çıxır zaman, çıxır öz məhvərindən.
Şair gərək nəğmə qoşa dilindən,
Odur, görən gözü Azərbaycanın!

Həqiqət nəğməli, Babək qeyrəti,
Qələbə müjdəli, Vətən qüdrətli.
Azadlıq rəmzli, zəfər şöhrətli,
Odur, görə gözü Azərbaycanın!

Uca tutur həmişə şux qəddini,
Qırır sərlərin polad saddini.
Verib insanlara məhəbbətini,
Odur, görən gözü Azərbaycanın!

Çiynində var Vətən yükü, el dərdi,
Qayğıları sonsuz, ümman qədərdi.
Unutmayaq ki, O, nər oğlu nərdi,
Odur görən gözü Azərbaycanın!

*Tükəzban Cahangirova, Lənkəran şəhərində anadan olub. Tusi adına Azərbaycan Pedaqoji Universitetini bitirib. Şəhər 6 saylı orta məktəbində dil-ədəbiyyat müəllimi kimi fəaliyyətə başlayıb.*

*1990-2004-cü ilə kimi Lənkəran pedaqoji texnikumunda pedaqogika və psixologiya fənlərini tədris edib.*

*1993-cü ildə AETPEU-nun aspiranturasına qəbul olunub. 1999-cu ildə Pedaqoji elmlər namizədi, Alimlik dərəcəsi alıb. Lənkəranın ilk alim qadını adına layiq görülüb. Aspiranturada oxuduğu illərdə Bakı şəhər Müəllimləri İxtisasartırma və Təkmilləşdirmə İnstitutunda mühazirə dərsləri aparıb.*



*2004-cü ildən 2017-ci ilə kimi LDU-də Alimlik fəaliyyətini davam etdirib.*

*2017-ci ildən Q.Zeynalov adına Darquba kənd tam orta məktəbində psixoloq işləyir.*

*Müəllimlik fəaliyyəti ilə bərabər dövri mətbuatda da çıxış edir.*

*Belə ki, şerləri, mənsur şerləri, "Lənkəran", "Aşkarlıq", "Kredo", "Zirvə", "Qarabağa gedən yol", Ədəbiyyat və İncəsənət, Elm və Təhsil və s. bir çox qəzet və jurnallarda dərc olunur.*

Ulu Öndərimin yadigarıdır,
Vətənimin ürəyidir, canıdır.
Bu gün məmləkətin O, Sərdarıdır,
Odur, görən gözü Azərbaycanın!

İmzalar içində imzan var Sənin,
Bakı-Ceyhan oldu yeni zəfərin.
Səninlə fəxr edir yurdun Vətənin,
Sənsən, görən gözü Azərbaycanın!

Ruhu şad olsun Mübariz, Fəridin
Neçə qəhrəmanın, neçə şəhidin
Qisasını aldı Prezidentim
Odur, görən gözü Azərbaycanın!

Qaytardın Ramili Azərbaycana
Göz dağı çəkdirdin ermənistana
Baş əyirəm mən, mübarək imzana
Dünyanı mat qoyan o Şah fərmana!

Millətim öyündü cəsarətinlə
Daha da ucaldın şücaətinlə
Düşmənə güc gəldin öz qeyrətinlə
Sənsən, görən gözü Azərbaycanın!

Güvəndin xalqına, həm də özünə
Söz verdin və əməl etdin sözünə
Sərrast oxun girdi düşmən gözünə
Sənsən, görən gözü Azərbaycanın!

Hünərinə alqış, gücünə alqış
And içib verdiyin sözünə alqış
Min kərə, min kərə özünə alqış
Sənsən, görən gözü Azərbaycanın!

Allahdan arzum var, çatasan yüzə
Tanrım çox görməsin qoy, Səni bizə
İlhamın ilhamı gəlməsin gözə
Odur, görən gözü Azərbaycanın!
Sənsən, görən gözü Azərbaycanın!

***Tükəzban CAHANGİROVA,*** ***pedaqogika elmləri üzrə fəlsəfə doktoru***